Təsisçi: Azərbaycan Tibb Universiteti

# Təbib

Qəzet 1933 -cü ildən çıxır. http://www.amu.edu.az № 13 (1696) 15 iyul 2019 - cu il Qiyməti 50 qəpik

# Prezident İlham Əliyev NATO Müttəfiq Qüvvələrinin Avropadakı Ali Komandanının başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 10-da NATO Müttəfiq Qüvvələrinin Avropadakı Ali Komandanı ilə Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi - Rusiya Müdafiə nazirinin birinci müavini arasında keçirilən görüşdə iştirak etmək üçün Bakıya gələn NATO Müttəfiq Qüvvələrinin Avropadakı Ali Komandanı Tod Voltersin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, söhbət zamanı Bakıda beynəlxalq əhəmiyyətli mühüm görüşlərin keçirilməsindən məmnunluq ifadə olundu.

Görüşdə Azərbaycan ilə NATO arasında əməkdaşlıq, ölkəmizin Əfqanıstanda "Qətiyyətli dəstək" missiyasına töhfəsi məsələləri müzakirə edildi.



## BU SAYIMIZDA

## Professor Gəray Gəraybəyli "Azərbaycan Xalq Cümhuriyyəti 100" medalı ilə təltif olundu







**❍ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamına əsasən, Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" medalı ilə təltif olunub. Medal professor Gəray Gəraybəyliyə Təhsil naziri Ceyhun Bayramov tərəfindən təqdim olunub.**

Bu təltifə görə cənab Prezidentə təşəkkür edən ATU-nun rektoru, professor G.Gəraybəyli qürur hissi keçirdiyini, xalqımızın ən böyük uğur hekayəsi olan Xalq Cümhuriyyəti adına medal almağın böyük şərəf olduğunu bildirib.

## ATU ilə Təbriz Tibb Universiteti arasında əməkdaşlıq memorandumu imzalanıb




2

## Tələbə Gənclər Təşkilatı illik hesabat verdi

2



## Könüllülər təltif olundular



2

## II Müalicə-profilaktika fakültəsinin tələbələri ilə görüş

3

## Azərbaycan Tibb Universitetini əla qiymətlərlə bitirən məzunlarımız

4-5

**❍ Azərbaycan Tibb Universitetinin rəsmiləri ATU-nun müxtəlif fakültə və şöbələrində könüllü əsasda fəaliyyət göstərən tələbələrlə görüşüblər.**

# Könüllülər təltif olundular





Görüşdə ATU-nun rektoru, professor Gəray Gəraybəyli Azərbaycanda hər zaman gənclərə diqqət və qayğı nümayiş etdirildiyini bildirib. Onun sözlərinə görə, ölkəmizdə sonuncu gənclər qurultayından sonra bu sahənin inkişafına dair müxtəlif sərəncamlar verilib. Bunlardan da biri gənclərin könüllü qismində müxtəlif sahələrdə işləməsinə aiddir: "Əslində, bu praktika uzun illərdir inkişaf etmiş ölkələrdə tətbiq olunur. İşə qəbul zamanı universiteti yeni bitirən gənclərin praktikasında könüllü kimi işləməsi böyük müsbət təcrübə sayılır. İndiyədək Azərbaycanda, əsasən idman tədbirlərində - Avropa oyunlarında, Formula 1 Qran-Prisində və digər beynəlxalq miqyaslı dövlət tədbirlərində könüllülər iştirak ediblər. Çox sevindirici haldır ki, Tibb Universitetinin tələbələri səhiyyə sistemində fəaliyyət göstərən ilk könüllülər sırasındadırlar. Əminəm ki, bu təcrübə sizin gələcək iş həyatınız üçün faydalı olacaq". Rektor könüllü tələbələri aktiv fəaliyyətlərinə görə təşəkkür edib və onlara daim fəal olmağı arzulayıb.

Səhiyyə Nazirliyinin aparat rəhbəri dosent Nadir Zeynalov çıxış edərək, gənclərin könüllülük fəaliyyətinə cəlb olunmasına dair prezident fərmanının əhəmiyyəti və faydalarından danışdı. Qeyd etdi ki, bu fərmanın icrası gənclərin inkişafı, karyerası, iş təcrübəsi toplamasına kömək edəcək: "Könüllülüyün tətbiqi cəmiyyətdə xeyirxahlıq, yeni davranış qaydalarını təblig edir. Gənclərin bu sahədə daha aktiv olması təsadüfi deyil. Əvvəllər Tibb Universiteti tələbələri yalnız tibb sahəsində könüllü kimi çalışa bilirdisə, indi fəaliyyət üçün daha geniş imkanlar yaradılır. Bu, sizin gələcəyinizdə uğura aparan yolda tramplin rolunu oynamış olacaq".

Görüşün sonunda 15 tələbəyə aktiv könüllülük fəaliyyətinə görə sertifikat təqdim olunub. Bunlar sırasında I müalicə profilaktika fakültəsindən Ehtibar Abbasov, Rauf Vəliyev, Həmid Həsənov, Tamilla Qəhrəmanzadə, Cavid Mustafazadə, Şükriyyə Əliyeva, II müalicə profilaktika fakültəsindən Fidan Bəylərova, Raul Rəsulzadə, Həsən Məmmədov, ictimai səhiyyə fakültəsindən Xətayə Quliyeva, Ella Qocayeva, əczaçılıq fakültəsindən Rəşad Məmmədli, Aytac Əmənova, stomatologiya fakültəsindən Ləman Pirməmmədova, rezidentura fakültəsindən isə Azad Kərimli təltif olunublar.

Görüşdə Səhiyyə Nazirliyinin könüllülərlə iş üzrə koordinatoru Vüsalə Səfərova, ATU-nun I Müalicə-profilaktika fakültəsinin dekanı, könüllülərlə fəaliyyət üzrə koordinator Elşad Novruzov, THİK-in sədri Elvin Kərimli iştirak ediblər.

# ATU ilə Təbriz Tibb Universiteti arasında əməkdaşlıq memorandumu imzalanıb

**İyulun 2-4-də ATU-nun nümayəndə heyəti Təbriz Tibb Universitetində rəsmi səfərdə olub.**



Nümayəndə heyətinin rəhbəri, ATU-nun tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyevin sözlərinə görə, 3 gün ərzində keçirilən görüşlər iki universitet arasında qarşılıqlı əməkdaşlıq memorandumunun imzalanması ilə yekunlaşıb: "Bu günlər ərzində biz Univeristetin rektoru, prorektorları və rəsmiləri ilə bir sıra görüşlər keçirdik. Görüşdə ATU haqqında geniş məumat verdik. Təbriz Tibb Universitetinin öz otelində qaldıq, burada qonaqlar üçün yaradılan şəraitlə, universitetin simulyasyon mərkəzi ilə tanış olduq. Gələcəkdə ATU-dan rezidentlərin kurasiya üçün Təbriz Tibb Universitetinə göndərilməsi məsələsi ilə bağlı müzakirə aparıldı. İlk dövrdə 20-yə yaxın rezidentin Təbriz Tibb Universitetinin fərqli bazalarına göndərilməsinə qərar verildi".

Prorektor S.Əliyev memorandumun rektor, professor Gəray Gəraybəyli tərəfindən imzalandığını, orda aparılan müzakirələr nəticəsində sənədə bir neçə əlavə və dəyişikliyin edildiyini vurğuladı.

Təbriz Tibb Universitetinin rektoru professor dr. Mohammad Hossein Sami ATU-nun nümayəndələrini qəbul etməkdən məmnunluq duyduğunu bildirərək, qarşılıqlı əməkdaşlığın yüksək səviyyədə keçəcəyinə inandığını bildirib.

Qeyd edək ki, rəsmi görüşdə ATU-nun Tədris Cərrahiyyə Klinikasının tədris treninq mərkəzinin müdiri Elmar Şərifov da iştirak edib.

# Seminarın aktiv iştirakçılarına sertifikatlar verildi

◆ Azərbaycan Tibb Universiteti malik olduğu zəngin beynəlxalq münasibətləri çərçivəsində dünyada tibb sahəsi üzrə tanınmış mütəxəssisləri qonaq edir, tanınmış alimlərin müəllim və tələbələr üçün seminarlarını təşkil edir. Hazırda Çikaqo Universitetinin professoru, Amerika İmmunoloqlar Assosiasiyasının və Amerika Mikrobiologiya Cəmiyyətlərinin üzvü, doktor Nadim Fazal bir neçə gündür ki, ATU-nun qonağı qismində universitetin müəllimləri üçün müxtəlif mövzularda seminarlar keçirir.



N.Fazalın "Müəllimlərin dərs demək fəlsəfəsi", "Kurikulumun xəritəsi", "Müəllimlərin tələbələri öyrətmə üsulları" mövzularında etdiyi əhatəli və mükəmməl çıxışı pedaqoji əməkdaşlar tərəfindən maraqla qarşılanıb. "Müasir tibbi təhsil" mövzusundakı növbəti seminarda inkişaf etmiş ölkələrin ali tibb təhsili müəssisələrində tədris zamanı əldə edilmiş yeniliklərin nəzəriyyə və təcrübədə necə öyrədilməsi məsələsinə də toxunulub. Əldə olunmuş nailliyyətlərin və tətbiq olunacaq yeniliklərin hansı mərhələlərlə həyata keçirilməsi, müəllimlərin bu yenilikləri hansı üsul və vasitələrlə tələbələrə çatdırması barədə səsləndirdiyi fikirlər müzakirələrə səbəb olub.

Nadim Fazal çıxışlarında müasir üsullarla tədrisin təşkili, inkişaf etmiş ölkələrin ali təhsil müəssisələrində tətbiq olunan qaydalardan və özünün qazandığı çoxillik təcrübələrdən danışıb, konkret misallar göstərib. Onun nümayiş etdirdiyi örnək slaydlar, tələbələrin mövzunu yaxşı mənimsəməsi üçün müəllimlərin istifadə etdiyi çoxşaxəli üsullar barədə gətirdiyi dəlil və sübutlar dinləyicilərin diqqətini cəlb edib.

Yekunda seminarların aktiv iştirakçıları ATU rəsmiləri tərəfindən sertifikatla mükafatlandırılıblar.

ATU-nun tədris və müalicə işləri üzrə prorektoru professor Sabir Əliyev, beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Orxan İsayev, rektorun müşaviri, dosent Zülfüqar Musabəyov, tədris şöbəsinin müdiri, dosent Samir Cavadovun iştirakı ilə baş tutan son yekun toplantıda bu cür seminarların keçirilməsinin vacibliyindən və faydalarından danışılıb.

# Tələbə Gənclər Təşkilatı illik hesabat verdi

**◆ Azərbaycan Tibb Universitetinin Tələbə Gənclər Təşkilatı (TGT) illik hesabatını verdi.**



ATU-nun Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent Cahangir Qasımov TGT-nin fəaliyyətini müsbət qiymətləndirərək, tədbir iştirakçılarına uğurlar dilədi: "Sizin fəaliyyətiniz universitetimiz üçün çox önəmlidir. Çünki sizin qurum sayəsində tələbələr arasında motivasiya yaranır. Rektor Gəray Gəraybəyli üzrlü səbəblərdən bu görüşdə iştirak edə bilmədi. Lakin siz hamınız şahidsiniz ki, rektor tərəfindən bütün müraciətlərinizə baxılır, həlli yolları araşdırılır. Tədbir keçirmək istəklərinizə daim müsbət yanaşılır. Yeri gəlmişkən rektor, professor Gəray Gəraybəylinin sizi təbrik etdiyini, yeni tədris ilində hamınıza uğurlar dilədiyini diqqətinizə çatdırıram".



C.Qasımov ATU-da dərslərin, imtahan prosesinin digər universitetlərə nisbətən ağır olmasını nəzərə alaraq, TGT-nin işinin heç də digər universitet TGT-lərindən geridə qalmadığını bildirdi. O, bu işdə əməyi olan hər kəsə uğurlar dilədi.

Daha sonra ATU TGT-nin sədri Rauf Vəliyev çıxış edərək, bu il ərzində TGT-nin gördüyü işlər haqqında geniş hesabatla çıxış etdi: "ATU TGT-nin yaradılması ilə Azərbaycan Tibb Universitetinin tələbələri ölkənin ictimai-siyasi həyatında ciddi rola sahib olmağa başlayıb. Belə ki, tələbələrimizin respublika və beynəlxalq səviyyəli tədbirlərin iştirakçısı və eyni zamanda, təşkilatçısı qismində fəal iştirakları təmin olunub. Geridə qoyduğumuz tədris ili ərzində ATU TGT olaraq 10-dan çox layihənin birbaşa icraçısı olmaqla yanaşı, respublika səviyyəsində təşkil olunan tədbirlərdə tələbələrimizin iştiraklarını təmin etmişik. ATU tələbələri ölkədə keçirilən beynəlxalq səviyyəli yarışmalarda ilkin tibbi yardım işçisi, həkim köməkçisi olaraq da fəaliyyət göstərirlər. Belə yarışlara nümunə olaraq artıq ənənəvi xarakter alan Formula 1 yarışları, ölkədə ilk dəfə olaraq təşkil olunan UEFA Avropa Liqasının Final mərhələsi, EYOF gənclər arasında idman festivalını göstərə bilərik".

Tədbirdə ATU-nun ümumi işləri üzrə prorektoru Natiq Xəlilov, THİK-in sədri Elvin Kərimli də iştirak edirdi. Qonaq kimi tədbirə dəvətli olan Azərbaycan Tələbə Gənclər Təşkilatının baş katibi Ramin Həbibzadə, Nəsimi rayon Gənclər və İdman İdarəsinin sədr müavini Şahmar Tağıyev də TGT-nin hesabatını yüksək qiymətləndirərək tələbələrə gələcək işlərində uğurlar dilədilər.

Qeyd edək ki, Tələbə Gənclər Təşkilatlarının fəaliyyəti Prezident Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin 2005-ci il 15 fevral tarixli 41 №-li sərəncamına əsasən, "Azərbaycanda gənclər və tələbələrlə işin şəbəkələnməsinə və təkmilləşdirilməsinə dair tədbirlər planı"nın təsdiq olunması ilə başlanılıb.

Tələbə Gənclər Təşkilatlarının fəaliyyətlərinin tənzimlənməsini təmin etmək məqsədilə 2005-ci ilin may ayında Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi və Təhsil Nazirliyi "Ali və orta ixtisas təhsili müəssisələrində fəaliyyət göstərən Tələbə Gənclər Təşkilatlarının Əsasnaməsi"ni təsdiq ediblər. Belə ki, bu sərəncama əsasən, Azərbaycan Tibb Universitetində Tələbə Gənclər Təşkilatı 2006-cı ildə yaradılıb və fəaliyyətə başlayıb.

Sonda 2018/2019-cu tədris ili ərzində Azərbaycan Tibb Universitetinin ictimai-siyasi həyatında fəal iştirak edən və fərqlənən tələbələrə sertifikatlar verilib.

**ATU-nun mətbuat xidməti**

# II Müalicə-profilaktika fakültəsinin tələbələri ilə görüş

**❍ Növbəti tədris ilinin dərs cədvəlində aparılacaq yenilik və dəyişikliklərlə bağlı II müalicə-profilaktika fakültəsinin tələbələri ilə görüş keçirilib.**



Görüşü fakültənin dekanı, dosent İsrail Məhərrəmbəyli açaraq tədbirin mahiyyəti barədə tələbələrə ətraflı məlumat verib. lan dəyişikliklər və fasilələr arasında müddət tələbələrin geniş müzakirəsinə səbəb olub. Bu barədə müxtəlif təkliflər səsləndirilib.



Sonra Azərbaycan Tibb Universitetinin tədris hissə müdiri, dosent Samir Cavadov növbəti tədris ilində dərs cədvəlində nəzərdə tutulan yeniliklər və dəyişikliklərlə bağlı toplantı iştirakçılarını məlumatlandırıb. Dərs cədvəlində nəzərdə tutu-

Təkliflər arasında əvvəlki dərs cədvəlinin tətbiq olunması fikrini səsləndirənlər də olub. Dosent S.Cavadov səsləndirilən fikirlərin nəzərə alınacağını iştirakçıların diqqətinə çatdırıb.

# 4 yaşında uşaq üzərində ağır ürək əməliyyatı aparılıb

**◆ Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında ürəyində 5 ədəd qüsuru olan 4 yaşında uşaq üzərində ağır ürək əməliyyatı həyata keçirilib.**



Əməliyyatı icra edən ATU-nun Tədris Cərrahiyyə Klinikasının uşaq ürək cərrahı Ramal Həsənovun sözlərinə görə, Fallo pentadası 5 ayrı ürək anomaliyasının birlikdə rast gəlinməsi ilə meydana çıxan mürəkkəb anadangəlmə ürək qüsurudur. Bu ürək qüsuru uşaqlarda tez yorulma, təngnəfəslik və göyərmə ilə özünü göstərir. Bu xəstəlikdən əziyyət çəkən uşaqlarda çox vaxt qəfildən ciddi göyərmə tutmaları olur. Belə tutmalar əsasən huş itirmə, bəzən isə ölümlə nəticələnə bilir. Bu təzahürlər sağ mədəcikdən ağ ciyərlərə çirkli qanı daşıyan damardakı darlığın dərəcəsindən asılıdır.

Uşaq cərrahı R.Həsənovun bildirdiyinə görə, Fallo pentadasının birdəfəlik tam müalicəsi Total korreksiya əməliyyatıdır: "Bu əməliyyatı ağ ciyər arteriyaları kifayət qədər yaxşı inkişaf etmiş xəstələrdə ilk və tək əməliyyat olaraq icra edirik. Bizim xəstəmiz 4 yaşında 14 kq çəkidə olan oğlan uşagıdır. O, 15-20 metr yol gedərkən belə yorulurdu. Normal vəziyyətdə uşaqda göyərmə qeyd edilirdi. Oksigen saturasiyası 72 % idi. Ağ ciyər damarları kifayət qədər yaxşı inkişaf etməmişdi (Mc-Goon indeksi=1.59). Uşağı əməliyyata aldıq. Mədəciklər arasındakı dəliyi aorta damarı yalnız sol mədəcikdən qan alacaq şəkildə bağladıq. Sağ mədəcik çıxış yolundakı darlığı ağ ciyər arteriyası və şaxələri ilə birlikdə pulmonar qapağı təmir edərək genişləndirdik. Qulaqcıqarası çəpər defektini bağladıq. Əməliyyatdan sonra qan dövranı normal hala gəldi və göyərmə aradan qalxdı. Oksigen saturasiyası 100%-ə qalxdı".

# Azərbaycanlı alim Türkiyədə Ginnesin Rekordlar Kitabına düşən əməliyyata rəhbərlik edənlərdən biri olub

**◆ Bu günlərdə Türkiyənin 27-ci şəhəri hesab edilən Malatyada fəaliyyət göstərən İnönü Universitetinin Qaraciyər Nəqli İnstitutunda böyük həkim briqadası tərəfindən Ginnesin Rekordlar Kitabına düşən qaraciyər transplantasiya əməliyyatı aparılıb.**



Belə ki, eyni gündə və eyni vaxtda 5 nəfərə donor qaraciyəri köçürülübdür. Sevindirici haldır ki, aparılan bu əməliyyatlara I Cərrahi xəstəliklər kafedrasının müdiri, AMEA-nın müxbir üzvü, professor Nuru Bayramov həm rəhbərlik edənlərdən biri, həm də eksperti olubdur.

Bu əməliyyatda, eyni zamanda 100-ə yaxın həkmi personalı iştirak edib. Eyni anda 10 nəfər üzərində əməliyyat aparılıb. Yəni 5 donordan qaraciyərin bir hissəsi götürülərək digərinə köçürülübdür. Dünyanın heç bir Qaraciyər Transplantasiya Mərkəzində eyni gündə və eyni anda 2-dən artıq əməliyyat aparmaq mümkün olmadığından, qardaş Türkiyədə aparılan bu əməliyyat Ginnesin Rekordlar Kitabına düşüb.

Qeyd edək ki, Azərbaycan Tibb Universitetinin rezidentlərindən bir qrupu bu əməliyyatı yaxından izləyə biliblər.

# ATU-nun kardioloqu Azərbaycanda Avropa Kardiologiya Cəmiyyətinin beynəlxalq sertifikatına malik yeganə həkimdir

**❍ ATU-nun Tədris Cərrahiyyə Klinikasının kardioloqu Yasmin Rüstəmova Azərbaycanda ilk dəfə olaraq Kardiovaskulyar MRT görüntüləmə sertifikasiya imtahanını uğurla verərək beynəlxalq sertifikata layiq görülüb.**






Onu da qeyd edək ki, dünyada çox az sayda mütəxəssis bu sertifikata malikdir.

Kardioloq, tibb üzrə fəlsəfə doktoru Y.Rüstəmova ürək görüntülənməsi və ürək çatışmazlığı üzrə Avropada ixtisaslaşma keçib. Məlumat üçün bildirək ki, Yasmin Rüstəmova Azərbaycanda Kardiovaskulyar MRT müayinəsi sertifikatının ilk və yeganə sahibidir.

# Dilçi alimimiz beynəlxalq konfransda bölmə sədri oldu

**25-27 iyun 2019-cu il tarixlərində Türkiyənin Nevşehir şəhərində Nevşehir Hacı Bektaş Veli Universitetinin və "RESSCONGRESS"in təşkilatçılığı ilə "III Uluslararası Eyitim Bilimleri ve Sosyel Bilimler Sempozyumu" keçirilib.**



Azərbaycan dili kafedrasının dosenti Dürdanə Rəhimzadə bu simpoziumda "Ərəb mənşəli tibbi terminlər" mövzusunda məruzə edib, həmçinin konfransın dinləmələrindən birində bölmə sədri olub. 400-dən çox iştirakçının qatıldığı bu tədbirdə əməkdaşımızın məruzəsi böyük maraqla qarşılanıb.

Əməkdaşımıza məruzəsinə görə sertifikat, bölmə sədrliyinə görə təşəkkürnamə təqdim edilib.

Qeyd edək ki, dosent D.Rəhimzadə indiyədək bir çox xarici ölkələrdə keçirilən beynəlxalq konfrans və qurultaylarda iştirak edərək maraqlı məruzələri ilə ölkəmizi və universitetimizi layiqincə təmsil edib.

# Əməkdaşımız Londonda keçirilən 15-ci Avropa Konqresində iştirak edib

**Azərbaycan Tibb Universitetinin İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının baş müəllimi, tibb üzrə fəlsəfə doktoru Yaqut Hacıyeva 17-18 iyun 2019-cu il tarixində Londonda keçirilən "Piylənmə və endokrinoloji məsələlərə dair 15-ci Avropa konqresi"ndə iştirak edib.**



Baş müəllim Y.Hacıyeva konqresdə "Piylənmə və hiperxolesterinemiyanın qarşılıqlı asılılığının populyasion qiymətləndirilməsi" mövzusunda məruzə ilə çıxış edib.

Y.Hacıyeva çıxışında qeyri-infeksion xəstəliklərdə risk amillərinin birinin də piylənmə olduğunu vurğulayıb: "Hər il artıq çəki və ya piylənmə nəticəsində ən azı 2.8 milyon insan məhv olur. Piylənmə hallarının sayı son 30 il ərzində təxminən 2 dəfə artmışdır. Bu da öz növbəsində vaxtından əvvəl ölüm və əlillik ehtimallını artırır".

Dünyanın bir çox ölkələrindən mütəxəssis və tədqiqatçıların iştirak etdiyi konqresdə piylənmə və endokrinoloji problemlərin səbəbləri, risk amilləri və profilaktikası ilə bağlı müzakirələr aparılıb. Aparılan müzakirələr bir daha göstərib ki, bu qlobal problemlərin həllində birgə əməkdaşlığın müstəsna rolu vardır.

**ATU-nun mətbuat xidməti**

# Azərbaycan Tibb Universitetini əla

## LEYLA HÜSEYNOVA



1996-cı il iyulun 21-də Bakı şəhərində anadan olub. Akademik Z.Əliyeva adına liseyi 2013-cü ildə qızıl medalla bitirib və həmin il Azərbaycan Tibb Universitetinin I Müalicə-profilaktika fakültəsinə 636 balla daxil olub. I kursun 2-ci semestrindən ingilis dilində təhsil almağa, IV kursdan isə alman dilini öyrənməyə başlayıb. 2017-ci ilin dekabrında alman dili üzrə imtahan verərək **C1** dərəcəsi alıb.

Tibbi biliyini artırmaq məqsədilə Türkiyədə və Almaniyada yay praktikası keçib. 2018-ci ildə DAAD təqaüdü qazanıb və Berlində alman dilində 1 aylıq tibbi kurslara gedib. O, həmçinin ölkəmizdə keçirilən bilik yarışmalarında iştirak edib. "Breyn rinq" intellektual yarışında universitetimizi komanda kapitanı kimi təmsil edib.

Bunlarla yanaşı könüllülük fəaliyyətilə də məşğul olub. 2018-2019-cu illərdə Azərbaycanda keçirilən F1 yarışında tibbi marşal olaraq iştirak edib. O cümlədən Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının "Gənc elçilər" proqramının üzvü olub. Bu dövrdə bir neçə səfirlikdə görüşlərdə iştirak edib. Moskvada Beynəlxalq Könüllülər Proqramı çərçivəsində nümayəndə heyətinin üzvü kimi Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin keçirdiyi VII Qlobal Bakı Forumunda könüllü qismində iştirak edib.

Leylanın ən böyük arzularından biri peşəkar oftalmoloq olmaqdır. O, bu məqsəd üçün Almaniyada təhsilini davam etdirməyi planlaşdırır.

## QƏNDAB NOVRUZLU



2013-cü ildə 675 balla ATU-nun II Müalicə-profilaktika fakültəsinə daxil olub. Təhsil aldığı müddətdə ictimai fəallığı ilə də fərqlənib. IV kursdan "Bilmec" təşkilatında fəaliyyətə başlayıb. Xaricdə fəaliyyət göstərən bir çox tibb işçilərinin universitetlə ünsiyyət yaratmasına nail olub. Arzusu Almaniyada təhsilini davam etdirmək və yüksək ixtisaslı həkim kimi vətənə dönməkdir.

## MƏHƏRRƏM ALİMLİ




1993-cü ildə Balakən rayonunda ziyalı ailəsində anadan olub. 2010-cu ildə rayonun Nizami adına 1 saylı orta məktəbini bitirib. Orta məktəb illərində o, eyni zamanda Bülbül adına müsiqi məktəbinin 7 illik fortepiano şöbəsində də təhsilini davam etdirib. Texniki sahələrə marağının olmasına baxmayaraq, tibbə olan yüksək həvəsi onun 2013- cü ildə universitetin II Müalicə-profilaktika fakültəsinə qəbul olmasına səbəb olub. Tələbəlik illərində universitetin ictimai həyatında, eləcə də Tələbə Elmi Cəmiyyətində aktivlik göstərib. 2 elmi işi Beynəlxalq Konqresin Tibb Jurnalında çap olub. II kursda fakültələrarası elmi konfransda II MPF-ni təmsil edərək "İlin ən yaxşı tələbə elmi tədqiqatçısı" adına layiq görülüb. III kursda "2. AZERBAİJAN – GERMAN –TURKİSH MEDİCAL CONGRESS"də "General and vascular surgery " seminarında iştrak edib.

A.Məhərrəmli Rusiyada Stavropol Dövlət Tibb Universitetində keçirilən "Asklepiy" yarışmasında "AMU Fires" komandasının tərkibində də universitetimizi təmsil edərək yüksək nailiyyətlər əldə edib.

2017-ci ildə fakültə tələbələrinin səs verməsi və Böyük Elmi Şuranın qərarı ilə II Müalicə-profilaktika fakültəsinin tələbə dekanı secilib. 2018-ci ildə universitetin ictimai həyatında fəal iştrakına görə "İlin ən aktiv tələbəsi" adına layiq görülüb.

İstanbul Okmeydan Egitim və Araşdırma Xəstəxanasında təcili yardım üzrə və Almaniyanın Frankfurt am Main şəhərində LOR sahəsi üzrə təcrübə keçib. Boş vaxtlarında pianoda ifa etməyi xoşlayır.

## ELŞƏN ALLAHVERDİYEV



2014-cü ildə Bakıda 299 saylı məktəb-liseyi bitirib və elə həmin il 626 balla Azərbaycan Tibb Universitetinin Stomatologiya fakültəsinə qəbul olub. 2015-ci ildə musiqinin onun həyatına bir rəng qatması məqsədilə fortepianoda öz bacarıqlarını inkişaf etdirib. Tələbəlik illərində ingilis dilini mükəmməl öyrənib və tibb sahəsi üzrə inkişaf etmiş xarici ölkələrin ədəbiyyatı ilə yaxından tanış olub. Gələcəkdə ixtisası üzrə yüksək nailiyyətlər əldə etmək arzusundadır.

## AYDAN BABAYEVA



2014-cu ildə Yevlax rayonunun Tofiq İsmayılov adına Kövər kənd orta məktəbini bitirib. Elə həmin il 509 balla Azərbaycan Tibb Universitetinin Stomatologiya fakültəsinə daxil olub.

2012-ci ildə Yevlaxda təşkil edilmiş biologiya fənni üzrə olimpiadada I yerə layiq görülüb. Universitetdə təhsil aldığı illərdə bir çox nüfuzlu seminarlarda iştirak edib. Həkimlik sənətinin incəliklərini öyrənmək üçün lazım olan optimal şəraitdən istifadə edəcəyini bildirir.

## ƏMİNƏ ABDULLAYEVA




2014-cü ildə Sumqayıt şəhəri, N.Gəncəvi adına "Texniki və Təbiət Elmləri" Liseyini müvəffəqiyyətlə bitirib və elə həmin il 673 bal toplayaraq Azərbaycan Tibb Universitetinin Stomatologiya fakültəsinə daxil olub.

Liseydə oxuduğu illərdə bir sıra bilik yarışmalarının və olimpiadaların iştirakçısı olub. Belə ki, 2013-cü ildə Respublika fənn olimpiadaları "Biologiya" nominasiyası üzrə II, "Sabahın Alimləri" II Respublika müsabiqəsində" Biologiya" nominasiyası üzrə III yeri qazanıb.

2018-ci ildən etibarən "Sağlam Düşüncə" Gənclər Təşkilatının İdarə heyətinin üzvü, "Sağlam Yaşa" fəaliyyət istiqamətinin koordinatoru olub. Azərbaycan Respublikasının Gənclər Fondu tərəfindən maliyyələşdirilən "Sağlam Yaşa-sağlam həyat tərzinin təbliği kampaniyası – 2" layihəsinin rəhbəridir.

O cümlədən IFMSA-in (Beynəlxalq Tibb Tələbələri Assosiasiyaları Federasiyası) tərkibində təsis edilmiş "Azərbaycan Həkimlər və Təbib Tələbələr" İctimai Birliyinin (AzerMDS) üzvüdür.

Universitet illərində bir sıra yerli və beynəlxalq tədbirlərdə, o cümlədən Almaniya və Latviyada təşkil olunmuş tədbir və seminarlarda iştirak edib.

## NİGAR KƏRİMOVA



2014-cü ildə Bakı şəhəri, Ə.Eyvazov adına 275 saylı orta məktəbi əla qiymətlərlə bitirərək, 604 balla ATU-nun Stomatologiya fakültəsinə daxil olub. Məktəbdə oxuduğu illərdə fənn olimpiadalarında iştirak edib. Bakıda "Kimya" fənnindən Bakı şəhəri üzrə I yeri qazanıb.

O, həm də ictimai fəal kimi universitetin ictimai işlərində də yaxından iştirak edib. Tədbirlərdə fəal iştirakına görə "Heydər Əliyev adına Fond" tərəfindən təltifnamə alıb.

2016-2017 tədris ilində Stomatologiya fakültəsinin tələbə dekanı vəzifəsinə seçilən Nigar Böyük Elmi Şuranın iclaslarında oxuduğu fakültəni layiqincə təmsil edib.

## CƏLAL QULİYEV



1996-cı ildə Qəbələ şəhərində anadan olub. Orta təhsilini Qəbələ şəhər N.Apayev adına 4 saylı tam orta məktəbdə alıb. Orta məktəb illərində bir çox şəhər və respublika miqyaslı olimpiadaların iştirakçısı və qalibi olub. Həmçinin, məktəbin intellektual oyunlar komandasının kapitanı kimi ardıcıl 5 il yarışların rayon turunun qalibi pilləsini qoruyub saxlaya bilib. "Xəmsə" intellektual oyununda Qəbələ şəhərini təmsil edən "Zəka" komandasının tərkibində yeniyetmələr arasında keçirilən final turunda iştirak edərək II yeri qazanıb. 2014-cü ildə məktəbi əla qiymətlərlə başa vuraraq 662 balla ATU-nun Stomatologiya fakültəsinə daxil olub. II-III kurslarda fakültə THİK sədri kimi universitetin və fakültə dekanlığının ictimai işlərində yaxından iştirak edib.

Arzusu təhsilini Türkiyə Cümhuriyyətində davam etdirmək və ortodontiya ixtisası üzrə həkim olmaqdır.

## NƏRGIZ VƏLİXANOVA



1996-cı il sentyabrın 13-də Bakıda anadan olub. 2003-2011-ci illərdə 20 saylı məktəb-liseydə oxuyub. 2011-2014-cü illərdə akademik Zərifə Əliyeva adına liseydə təhsilini davam etdirib. 2014-cü ildə 636 balla ATU-nun Stomatologiya fakültəsinə daxil olub. Tələbə Elmi Cəmiyyətinin konfranslarında elmi məruzələrlə çıxış edib. Türkiyədə kurs da keçib. Bakıda keçirilən bir sıra beynəlxalq idman oyunlarında könüllü qismində iştirak edib. Bir sıra xarici dillərdə, o cümlədən rus, ingilis, italyan, alman və türk dillərində sərbəst danışır.

Xobbisi mahnı oxumaq, musiqi dinləmək, filmləri izləməkdir.

## GÜLNUR RÜSTƏMOVA



1997-ci il iyunun 24-də Quba şəhərində ziyalı ailəsində anadan olub.

2003-cü ildə Abşeron rayon Xırdalan şəhər 1 saylı tam orta məktəbinin I sinfinə gedib. Təhsil aldığı illərdə "Vergilər" olimpiadasında rayon və zona üzrə I yeri, respublika üzrə isə V yeri qazanıb. Riyaziyyat fənn olimpiadasında rayon üzrə I yeri tutub.

2014-cü ildə həmin məktəbi əla qiymətlərlə bitirərək 490 balla ATU-nun Stomatologiya fakültəsinə daxil olub. Ölkəmizdə keçirilən bir sıra nüfuzlu konfrans və seminarlarda iştirak edib. İxtisası üzrə bəzi klinikalarda çalışıb.

## GÜNEL MUSTAFAYEVA



2003-cü ildə Bakı şəhəri, Bəhruz Sultanov adına 34 nömrəli tam orta məktəbin I sinfinə gedib. 2014-cü ildə təhsil aldığı məktəbi əla qiymətlərlə bitirib və qəbul imtahanında 495 bal toplayaraq Azərbaycan Tibb Universitetinin Stomatologiya fakültəsinə daxil olub. Məktəbdə oxuduğu illərdə nümunəvi sagird kimi riyaziyyat fənni üzrə şəhər olimpiadasında iştirak edərək II yeri tutub. 2006-2013 cü illərdə G.Şərayev adına 35 nömrəli musiqi məktəbində fortepiano ixtisası üzrə təhsil alıb.

Ötən il "Estetik kompozit restavrasiyalarda biomimetika və biomexanika anlayışları və onların tətbiqi" adlı seminarda iştirak edib.

## VÜSALƏ ŞAMƏMMƏDOVA



2003-cü ildə Sumqayıt şəhəri, Tofiq İsmayılov adına 29 saylı tam orta məktəbin I sinfinə gedib. Məktəb illərində riyaziyyat fənni üzrə şəhər olimpiadasında iştirak edərək III yeri tutub.

2014-cü ildə həmin məktəbi əla qiymətlərlə bitirərək 638 balla ATU-nun Stomatologiya fakültəsinə daxil olub.

2018-ci ildə Tələbə Elmi Cəmiyyətinin 45-ci konfransında Uşaq stomatologiyası fənnindən "Məktəblilərdə stomatofobiyanın aradan qaldırılması" mövzusunda elmi iş təqdim edib və sertifikat alıb.

## ELLADA MƏMMƏDLİ



1996-cı ildə Bakıda anadan olub. 2013-cü ildə Kimya-biologiya təmayüllü liseyi məzunu olub. Elə həmin il 680 balla ATU-nun Müalicə işi fakültəsinə daxil olub və universiteti fərqlənmə diplomu ilə başa vurub. Gələcəkdə arzusu biliklərini daha da artırmaq üçün təhsilini davam etdirmək və öz ixtisası üzrə peşəkar mütəxəssislərdən biri olmaqdır.

# qiymətlərlə bitirən məzunlarımız

## LEYLA VƏLİYEVA



1996-cı il avqustun 26-da Yevlax rayonunda anadan olub. 2002-ci ildə Yevlax rayonu, Nizami Gəncəvi adına Malbinəsi kənd orta məktəbinin I sinfinə gedib. Bir çox məktəblərdə orta təhsilini davam etdirən L.Əliyeva sonda Bakı şəhəri A.Mustafayev adına 202 saylı məktəbi "Qızıl medal"la başa vurub.

VI sinifdə "Araz" kursları tərəfindən keçirilən sınaq imtahanında Yevlax şəhəri üzrə I yeri tutub. O, bu anoloji nəticəni IX sinifdə oxuduğu zaman qazanıb. Belə ki, "Araz"ın təşkil etdiyi sınaq imtahanında 540 bal toplayaraq Bakı şəhəri üzrə I yeri qazanıb.

Bundan əlavə, respublika fənn olimpiadalarında iştirak edərək müvafiq yerlər tutub. IX sinifdə Azərbaycan dili və ədəbiyyat fənni üzrə rayon mərhələsində III, X-XI biologiya fənnindən Bakı şəhəri üzrə I, respublika üzrə isə IV yeri tutub.

20 Yanvar faciəsinin 21-ci ildönümünə həsr edilmiş "Azərbaycanın azadlığı və suverenliyi uğrunda" mövzusunda keçirilən inşa müsabiqəsində yer tutub və buna görə Bakı şəhər Təhsil İdarəsi tərəfindən mükafatlandırılıb. O, həmçinin Fənlərin Dostluğu Olimpiadasında mükafatlandırılan 10 nəfərdən biri olub.

2013-cü ildə 675 balla Müalicə-profilaktika fakültəsinə qəbul olub. 2016-cı ildə Türkiyənin İstanbul şəhərində "Ok Meydanı" Elmi-Tədqiqat Xəstəxanasında, 2018-ci ildə Almaniyanın Leer şəhərində Hannover Universitetinin tədris klinikasında təcrübələr keçib. L.Əliyeva bakalavr təhsilini əla qiymətlərlə başa vuraraq, ixtisas təhsilini Almaniyada davam etdirmək niyyətindədir. Elə bu səbəbdən də alman dilini öyrənib.

2018-ci ildə Alman Akademik Mübadilə Xidmətinin (DAAD) yay kursu stipendiyasını qazanıb (HSK-Stipendium), bu stipendiyanı Almaniyanın Aachen şəhərində dil biliklərini artırmaq üçün keçdiyi kursla dəyərləndirib və Goethe C1 sertifikatına layiq görülüb.

O, gələcəkdə özünü klinisistdən daha çox elmi işçi kimi təsəvvür edir. Endokrinologiya ixtisası diqqətini çəkən ixtisaslardan biri olduğu üçün bu ixtisas üzrə biliklərini və təcrübəsini artırmaq istəyir.

## GÖZƏL ZİYADLI



2014-cü ildə Laçın rayon 11 nömrəli tam orta məktəbini bitirib. 2014-cü ildə 639 balla ATU-nun Stomatologiya fakültəsinə qəbul olub. 2007-2012-ci illərdə isə Abşeron rayon Xırdalan şəhər uşaq musiqi məktəbində fortepiano ixtisası üzrə təhsil alıb.

Rəssamlığa da böyük həvəsi olub. Elə bu səbəbdən universitetə qəbul olduqdan sonra rəssamlıq kursuna gedib. O, əsasən yağlı boya ilə rəsm çəkməyi sevir. Gələcəkdə öz sevdiyi həkim peşəsini davam etdirməklə yanaşı, rəssamlıq bacarıqlarını daha da inkişaf etdirmək və rəsm sərgiləri təşkil etmək niyyətindədir.

## SƏNUBƏR ƏLİYEVA



1996-cı il martın 26-da Bakıda anadan olub. 2013-cü ildə Texniki Humanitar Liseyini əla qiymətlərlə bitirib və həmin il Müalicə isi fakültəsinə qəbul olub. O, eyni zamanda Əfrasiyab Bədəlbəyli adına 23 saylı musiqi məktəbində 8 il skripka ve pianino üzrə təhsil alıb. Sənubər hələ uşaqlıqdan dərslərinə ciddi yanaşdığını bildirir və qazandığı uğurlara görə valideynlərinə minnətdar olduğunu qeyd edir.

Arzusu kardiocərrah kimi Almaniyada təhsilini davam etdirməkdir.

## KAMİLƏ QARAİSALI



1995-ci ildə Bakıda anadan olub. 2002-ci ildə Bakı şəhərindəki 20 saylı məktəbin I sinfinə gedib və 2013 ildə həmin məktəbi əla qiymətlərlə bitirib. 2013-cü ildə ATU-nun I Müalicə-profilaktika fakültəsinə daxil olub. Qrup nümayindəsi seçilib. III kursdan TEC-in aktiv üzvlərindəndir.

2015-ci ildən etibarən bir gənc kimi Avropa Akademiyasının Allerqologiya və İmmunologiya Cəmiyyətinin üzvüdür. Elmi konfranslarda, beynəlxalq konqreslərdə, treyninqlərdə iştirak edib. Apardığı çoxsaylı araşdırmalar ilə bağlı məqalələri nəşr olunub. Arzusu kamil, hərtərəfli yetkin, bacarıqlı bir həkim kimi xalqına xidmət etməkdir.

## MURAD CƏLİLOV



1996-cı il martın 9-da Ağdaş rayonunda anadan olub. 2002-2008-ci illərdə M.İsayev adına orta məktəbdə təhsil alıb. 2008-ci ildə Ağdaş Özəl Türk Liseyinə qəbul olub və liseydə təhsil aldığı müddət fənnlər ingilis dilində tədris olunub. 2013-cü ildə Ağdaş Özəl Türk Liseyini əlaçı olaraq bitirib. Elə həmin il ATU-nun I Müalicə-profilaktika fakültəsinə 612 balla qəbul olub.

Semestr ərzində imtahan balları yüksək olduğuna görə II kursdan etibarən ödənişli təhsildən ödənişsizə keçirilib.

Universitetdə təhsil aldığı müddətdə ictimai tədbirlərdə də yaxından iştirak edib. Bu səbəbdən Gənclər və İdman naziri Azad Rəhimov və universitetin rektoru, professor Gəray Gəraybəyli tərəfindən Fəxri Fərmanlarla təltif olunub. 2016-2017-ci illərdə keçirilən İslam Oyunlarında və F1 yarışında tibbi komandada yer alıb.

Hədəfi universiteti bitirdikdən sonra radiologiya və mikro invaziv cərrahiyyə ixtisasına yiyələnməkdir.

Bu arzusuna qovuşmaq üçün Türkiyə Cümhuriyyətində keçirilən "TUS" imtahanına hazırlaşır.

## LAURA ƏLİZADƏ



1996-cı il avqustun 7-də Bakıda anadan olub. 2013-cü ildə akademik Zərifə Əliyeva adına liseyi bitirib və elə həmin il ATU-nun I Müalicə-profilaktika fakültəsinə daxil olub. I kursda TEC-in ingilis dilində keçirdiyi konfransda "Thalassemia" mövzusunda çıxış edib və sertifikata layiq görülüb. YAP-ın Nəsimi rayon şöbəsinin və o cümlədən Tələbə Gənclər Təşkilatının tədbirlərində fəallıq göstərib.

2015-ci ildə Türkiyədə İstanbul Eğitim ve Araştırma Hastanesinin reanimasiya şöbəsində təcrübə keçib və müvafiq sertifikatla təltif olunub. 2017-ci ildə İstanbulda "Tıpdil" imtahanını müvəffəqiyyətlə verib. Könüllü kimi 2018-ci ildə ölkəmizdə keçirilən Formula 1 Grand Prix yarışlarında tibbi marşal qismində iştirak edib. Bundan əlavə, Respublika Müalicə Diaqnostika Mərkəzində "Basic First Aid and Adult CPR" üzrə treyning kursu keçib.

Arzusu tibb sahəsində biliyini artırmaq və bacarıqlı həkim kimi xalqına layiqincə xidmət etməkdir.

## AYSEL KİŞİYEVA



1996-cı il yanvarın 29-da Lənkəran şəhərinin Digah kəndində anadan olub. 2002-2013-cü illərdə Bakı şəhəri, Nizami rayonunun 238 saylı orta məktəbində təhsil alıb. 2013-cü ildə ATU-nun II Müalicə-profilaktika fakültəsinə qəbul olub. Həkim olmaq onun uşaqlıq arzusu olub. Elə bu səbəbdən də universitetə qəbul olduğu gün sevincinin həddi-hüdudu olmayıb. ATU-da təhsil aldığı illərdə tibb elmi ilə yanaşı, həm də böyük bir həyat məktəbi keçdiyini deyir. Bir şəxsiyyət kimi formalaşmasında keçdiyi bu yola görə universitetin rektoru, professor Gəray Gəraybəyliyə, dekan İsrail müəllimə, dekan müavinləri Zabit müəllimə, Arzu xanıma, və ilk 3 kursda dekanları olmuş Taryel müəllimə və dekan müavini Kamandar müəllimə, eləcə də zəhməti keçən hər bir müəllimə təşəkkürünü bildirir. Bu ayrıq məqamda kövrək hisslərlə universitet üçün ürəyindən keçənləri səsləndirir: "ATU, hər şey üçün səni çox sevdim. Həyatımda unudulmaz izlər qoydun sevimli, doğma universitetim!!!"

## ŞƏMS RƏHİMLİ



1996-cı ildə Bakıda anadan olub. 2013-cü ildə İ.Əbilhəsənov adına 42 saylı tam orta məktəbi "Qızıl medal"la bitirərək elə həmin il 651 balla ATU-ya daxil olub.

Onun valideynləri də həkimdir. Atası Telman Əmirov cərrah, anası Sevinc xanım isə mama-ginekoloqdur. "Həkim olmaq" mənim uşaqlıqdan arzum olub. Mənim bu ixtisası seçməyimdə valideynlərimin rolu böyükdür. Çünki atam və anam hər zaman mənim idealım olublar. Mən də hər zaman onlar kimi öz sənətinə daima şərəflə, vicdanla xidmət göstərən həkim olmaq istəmişəm.

Hal-hazırda gələcək təhsilimi xarici ölkədə davam etdirmək üçün hazırlaşıram. Gələcəkdə mama-ginekoloq və ya oftalmoloq kimi öz Vətənimə xidmət göstərmək niyyətindəyəm.

## UCAL ŞÜKÜRLÜ



2013-cü ildə 299 saylı məktəb-liseyi bitirib. 552 balla Müalicə-profilaktika fakültəsinə qəbul olub.

Universitetdə oxuduğu müddətdə professor-müəllim heyətinin rəğbətini qazanıb və hər semestri əla qiymətlərlə başa vurub.

Həkim olmaq Ucalın hələ uşaqlıqdan arzusu olub. Ailə üzvlərindən də həkimlərin olması onu bu arzunu reallaşdırmağa daha da həvəsləndirib. O, gələcəkdə peşəkar həkim olmaq niyyətindədir. Məhz elə buna görə də arzusu Almaniyada tibbi təhsilini davam etdirmək və bu sahədə hərtərəfli təcrübə toplayaraq vətənə dönməkdir.

Əldə etdiyi bütün uğurlarına görə valideynlərinə borclu olduğunu bildirir.

## KAMRAN FƏTƏLİYEV



1995-ci il noyabrın 1-də Bakıda ziyalı ailəsində anadan olub. Məktəbə gedənə qədər yazıb-oxumağı, riyazi məsələləri həll etməyi, məntiqi suallara cavab tapmağı bacarıb. IX sinfi "Fərqlənmə şəhadətnaməsi", XI sinfi isə 2013-cü ildə "Qızıl medal" ilə başa vurub.

Orta məktəbdə oxuduğu illərdə keçirilən tədbirlər, bilik yarışları və ictimai işlərdə fəal iştirak edib, bir sıra fəxri fərman və diplomlarla təltif olunub.

2010-cu ildə Bakı şəhər Təhsil İdarəsi tərəfindən keçirilən "Məktəbli gənclər Heydər Əliyev zəkasının işığında" adlı elmi konfransda N.Gəncəvi və minerallar aləmi" mövzusunda yazdığı elmi işi II yeri tutub. Elə həmin il Yasamal rayon məktəblərinin VIII siniflər üzrə riyaziyyat olimpiadasında və 2013-cü ildə şəhər məktəblərinin XI siniflər üzrə keçirilən biologiya olimpiadasında I yerə layiq görülüb.

2011-ci ildə dərc olunmuş "H.Əliyev-Davamçılar" ensiklopedik kitabında K.Fətəliyevin orta məktəbdə oxuduğu illərdə qazandığı nailiyyətlər barədə geniş məlumat verilib. IX sinifdə oxuduğu illərdə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən təşkil edilən inşa müsabiqəsində "Mirzə Fətəli Axundovun yaradıcılığı haqqında" yazdığı inşa II yerə layiq görülüb.

Yüksək balla ATU-nun Müalicə-proflaktika fakültəsinə daxil olan Kamran universitet illərində Tələbə Elmi Cəmiyyətinin təşkil etdiyi bir sıra tədbir və layihələrdə, o cümlədən yerli konfranslarda iştirak edərək sertifikatlar alıb.

Könüllü kimi də fəal olub. O, beynəlxalq yarışlarda könüllü qismində "Tibb" komandasında "Team leader" kimi fəaliyyət göstərib. İxtisasını Almaniyada artırmaq niyyətindədir.

**ATU-nu əla qiymətlərlə bitirən bu məzunların nümunəsində bütün məzunları səmimi qəlbdən təbrik edir, müstəqil həkimlik fəaliyyəti üçün vəsiqə alan gənclərimizə böyük uğurlar diləyirik!**

# Boy problemi ilə bağlı uşaqlara ödənişsiz preparat veriləcək

**◆ Gələcəyimiz olan uşaqlara dövlət qayğısının göstərilməsi prioritet məsələlərdən hesab olunur. Uşaqlar təhsilləri, sağlamlıqları, bir sözlə, cəmiyyətdə normal şəkildə inkişafları üçün bu gün dövlət tərəfindən lazımi səviyyədə müdafiə olunurlar. Bu günlərdə uşaqların boy probleminin aradan qaldırılması ilə bağlı bir Dövlət Proqramının həyata keçirilməsinə start veriləcək. Hazırda bu istiqamətdə müvafiq qurumlarda lazımi işlər həyata keçirilir.**



ATU-nun Tədris Terapevtik Klinikasının Uşaq pulmonolgiya, allerqologiya və endokrinologiya şöbəsinin müdiri Gündüz Əhmədovun verdiyi məlumata görə, onun rəhbərlik etdiyi şöbəyə boy problemi ilə bağlı çoxsaylı müraciətlər olur: "Bu tipli xəstələrin müalicəsi bahalı müalicələrdən hesab olunur.

Səhiyyə Nazirliyi uşaqlara kömək məqsədilə bir sıra proqramlar həyata keçirir. Belə proqramlardan biri də uşaqlarda boy probleminin aradan qaldırılması ilə bağlıdır. Bir sıra ölkələrdə boy çatışmazlığı problemini aradan qaldırmaq məqsədilə "Norditropin" dərman preparatından istifadə olunur. Proqram çərçivəsində adıçəkilən preparat ölkəmizdə uşaqlara ödənişsiz veriləcək və bunun dəyəri dövlətimiz tərəfindən qarşılanacaqdır."

G.Əhmədov "Norditropin" preparatının yalnız Tədris Terapevtik Klinikada xəstəliyi təsdiqlənən və Respublika Endokrinoloji Mərkəzində qeydiyyata götürülən uşaqlara veriləcəyini bildirib: "Adıçəkilən preparatın birinin qiyməti təxminən 250 manatdır. Xəstəliyin dərəcəsinə uyğun bir uşağa bu preparatdan 2-4 ədəd arası təyin olunur. Bu da 500-1000 manata başa gəlir. İllərlə bu müalicə davam etdikdə bir uşağa 10 min manat civarında vəsait sərf olunur. Xəstələrin əksəriyyətinin bunu almağa imkanları olmadığından, proqramın həyata keçirilməsinin valideynlərə böyük dəstək olacağı şəksizdir."

G.Əhmədov iyunun 22-də uşaqlarda boy çatışmazlığı problemi ilə bağlı Gəncə və Gəncə ətrafında fəaliyyət göstərən endokrinoloqların iştirakı ilə regional tədbirin keçirildiyini də qeyd edib. Bildirib ki, endokrinoloqlar xəstələrin vəziyyəti və digər məsələlərlə bağlı hərtərəfli təlimatlandırılıblar.

Hazırda Respublika Mərkəzində 200-ə yaxın uşağın qeydiyyatda olduğunu bildirən şöbə müdiri onların sayının ölkə üzrə 400-500-ə yaxın olduğunu da diqqətə çatdırıb və xəstələrin aşkarlanması istiqamətində lazımi tədbirlərin görüldüyünü bildirib.

# Fiziki yükün bəzi ürək-ağ ciyər patologiyalarında profilaktik və müalicəvi əhəmiyyəti

**Müasir dövrün aktual problemlərindən biri də ürəyin və ağ ciyərlərin qarşılıqlı şərtləndirilmiş patologiyalarının tezliyinin artmasıdır. Bu sistemlərdən birinin funksional cəhətdən pozulması ya digər sistemin də dəyişməsinə, ya da həmin sistemin güclənmiş fəaliyyəti ilə kompensasiya edilməsinə səbəb olur.**



Məlumdur ki, orqanizmin həyati vacib sistemlərinin modal dəyişikliklərinə səbəb olan faktorlar sisteminə fiziki aktivlik də aiddir. Fiziki yük qazın nəqli prosesini, ilk növbədə ağ ciyərlərin ventilyasiyasının sürətlə yenidən qurulmasını tələb edir. Tənəffüsün neyrorequlyator tənzimi orqanizmdə gedən metabolik proseslərə uyğun olaraq ağ ciyərlərin ventilyasiyasını təmin edir. Fiziki yük zamanı ağ ciyərlərin vintilyasiyanın artması faktı bir çox müəlliflər tərəfindən müəyyən edilmişdir.

Son zamanlar ağ ciyərlərin və miokardın xroniki patologiyası olan şəxslərin fiziki reablitasiyası proqramlarının hazırlanmasına ürək-damar patologiyalı risk qrupuna daxil olan (peşə-risk faktorları, artıq çəki, yaş) insanların kompleks sağlamlaşdırma tədbirlərinə tədricən qaçış yükünün də əlavə edilməsinə xüsusi maraq artmışdır. Müasir tibbi praktikada müxtəlif xəstəlikər zamanı fiziki yük və bərpa təlim üsullarından geniş istifadə olunur. Belə ki, dozalaşdırılmış fiziki yük kompensator və uyğunlaşdırma prosesləri üçün məqsədə uyğundur. Amerika Döş Qəfəsi Cərrahiyyəsi Assosiasiyasının (1999) məlumatlarına əsasən hipoksiyaya adaptasiya miokardın stressor və işemik pozuntularının əmələ gəlmə imkanını azaldır, bioloji zarlarda lipidlərin peroksidli oksidləşməsinin intensivliyini aşağı salır və miokardın antioksidant ferment sistemlərinin aktivliyini artırır.

Fiziki yük zamanı qanın turşu-qələvi vəziyyəti və qaz tərkibi də nəzərə alınmaqla kapilyarların, alvol epitelinin və kardiomiositlərin strukturunun zədələnməsi və kompensasiyasının əsas mərhələləri tərəfimizdən öyrənilmişdir. Bu isə tənəffüs və qan dövranı sistemlərində yaranmış hipoksiyanın dərinliyini obyektiv şəkildə qiymətləndirməyə, fiziki yükün təsirindən "sağ mədəcik kardiomiopatiyasının" yaranmasının mümkünlüyünü əsaslandırmağa imkan verir.

Mədəciklərin miokardında yaranan dəyişiklikləri bilmək nəinki ürək-ağ ciyər sisteminin uzlaşmaş fəaliyyətini qiymətləndirməyə, həmçinin fiziki yük zamanı yorulma və kiçik qan dövranı hipertenziyasının qarşısını almağa imkan verir, ekstermal şəraitlərdə kardiopulmonal reaksiyaların kompleks şəkildə öyrənilməsində qarşıya yeni-yeni vəzifələr qoyur. Bütün bunlar isə təbii ki, elmi əsaslarla morfoloji zədələnmələr, kompensasiya adaptasiyaya dair biliklərə yiyələnməyi tövsiyə edir.

**Təranə Sultanova,**
*Ümumi cərrahlıq kafedrasının assistenti*

# "Tələbə dekan hər şeydən öncə səbirli, dözümlü, təmkinli olmalıdır"

**Azərbaycan Tibb Universitetində son illərin aparılan islahatlarının nəticəsidir ki, tədrisin keyfiyyətinin daha da yaxşılaşdırılması, tələbə-müəllim münasibətlərində yaranan problemin aradan qaldırılması və bir sıra məsələlərin qaydasına qoyulması istiqamətində sözün əsl mənasında xeyli irəliləyiş nəzərə çarpır.**

Bunun üçün fakültələr üzrə seçilmiş tələbə dekanlar xüsusi fəallıq göstərirlər. Onlar həmçinin, Böyük Elmi Şuranın iclaslarında iştirak edir, tələbələrin şikayət, təklif və istəklərini rəhbərliyə, dekanlara çatdırırlar.

Belə tələbə dekanlardan biri də İctimai səhiyyə fakültəsinin III kurs tələbəsi Fidan Həsənlidir. 1999-cu il yanvarın 1-də Bakıda anadan olan F.Həsənli Binəqədi rayonunda fəaliyyət göstərən 83 saylı tam orta məktəbi bitirib. İki il Respublika İncəsənət Gimnaziyasında fortepiano ixtisası üzrə də təhsil alıb. Gözəl musiqi duyumuna malikdir. Uşaqlıqdan həkim olmaq arzusunda olub. Gərgin əməyi, ciddi hazırlığı nəticəsində ATU-ya daxil ola bilib. Universitetin ictimai işlərində, keçirilən tədbirlərdə yüksək fəallıq göstərən tələbələrdəndir və bacarıqlı aparıcı kimi tanınır. Arzusu daha böyükdür. Yaxşı mütəxəssis olmaq üçün universiteti bitirdikdən sonra təhsilini ölkə hüdudlarından kənarda davam etdirməkdir. Hər halda, bunu zaman göstərəcək. Amma gəlin görək, **F.Həsənli bir tələbə dekan kimi öhdəsinə düşən vəzifəni ayiqincə yerinə yetirə bilirmi?**

- Fakültənin tələbə dekanı olmaq elə də asan deyil. Bunun üçün səndə təmkin, dözüm və səbir lazımdır ki, hər bir tələbəni sonadək dinləyə, sonra problemlərini qaydasına qoya biləsən. Mən fakültənin dekanı Anar müəllim ilə birgə tələbələrin üzləşdiyi problemləri qaydasına qoya bilmişik. Tələbələr də məndən razı qalıb.

**- Onların şikayətləri ən çox nədən olur?**

- Ən çox edilən şikayətlər tələbə-müəllim münasibətləri ilə bağlıdır. Onları dinlədikdən sonra ya özlərinə çıxış yolunu göstərirəm, gedib problemlərini həll edir, ya da müəllimin özü ilə görüşüb problemi qaydasına qoyuruq. Çalışmışam ki, tələbələrə bir nümunə olum. Bacardığım qədər səmimiyyəti qoruyub saxlayıram.

Elə ötən il universitetə qəbul olan I kurs tələbələri ilə görüş oldu. Onlarla görüş zamanı hiss etdim ki, İctimai səhiyyə fakültəsinə xeyli maraq artıb. Fakültəmizə yüksək bal toplayanlar qəbul olublar. Bu, olduqca sevindirici haldır. Onlara unuversitetlə, dərs cədvəlləri, dərs vəsaitləri, kitabxana və s. ilə bağlı geniş məlumat verdim. Əgər çətinliklə üzləşərlərsə, bir dekan tələbə kimi yanlarında olacağıma söz verdim. Onlar da nə vaxt lazım olsa, mənə müraciət edir, həmişə də tərəfimdən onlara olan münasibətdən razı qalıblar.

**- Tələbə-dekan kimi həmkarlarınız ilə bağlı hansısa maraqlı ideyanız varmı?**

- İdeyalar var. Amma dərslərimizin ağırlığı ilə əlaqədar vaxt məhdudiyyəti olur deyə, hamısını həyata keçirmək olmur. Çox istərdim ki, bizim fakültənin bütün tələbələri öz təşəbbüsümüzlə hansısa sərbəst bir məkanda özümüzün təşkil etdiyimiz bir tədbir keçirək. Bunu istirahət günlərinə də salmaq olar. Yəni rəsmiyyətdən kənar, keçirəcəyimiz bu tədbir musiqili-əyləncəli də ola bilər.



**- Orta məktəbdə keçirilən tədbirlərdə də bu cür fəallıq göstərərək aparıcılıq etmisinizmi?**

- Mən orta məktəbdə oxuyanda yalnız ATU-ya daxil olmaq üçün düşünmüşəm. Ən böyük arzum isə həkim olmaq olub. İstəmişəm insanlara haradasa şəfa verəm, onların sağlamlığının bərpasında az da olsa rolum olsun.

Mən universitetdə oxuduğum ərəfədə dekan və müəllimlərimin təklidi ilə aparıcılıq etmişəm. Hesab edirəm ki, elə də pis alınmayıb.

Onu da qeyd edim ki, biz tələbələr harada olmağımızdan asılı olmayaraq, universitetimizi təmsil edirik. Həm də bu təhsil ocağının istər-istəməz bir növ təbliğatçılarıyıq. Təvazökarlıqdan uzaq olsa da, mən Qırğızıstan vətəndaşı olan bir qızın universitetimizdə təhsil almasına vasitəçi olmuşam.

Biz çalışıb əcnəbilərlə yaxşı münasibət qurmalı, onlara tariximiz, mədəniyyətimiz, musiqimiz, mətbəximizlə bağlı ətraflı məlumat verməliyik ki, ölkələrinə geri döndükdə xalqımızla, universitetimizlə bağlı xoş təəssüratlarını ölkəsində təmasda olduğu hər kəslə bölüşə bilsin.

**Qabil ABDULLAYEV**

# Ana bətnində dölün döş qəfəsinə stend qoyuldu

◆ ATU-nun həkimləri 32 həftəlik hamilə qadının bətnindəki körpəni əməliyyat ediblər.



Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında hamilə qadının bətnindəki uşaq (döl) üzərində mürəkkəb əməliyyat icra olunub. Klinikanın ginekologiya şöbəsinin müdiri Turab Canbaxışovun sözlərinə görə, digər klinikalarda xəstəyə hamiləliyi sonlandırmağı məsləhət görsələr də, qadın buna razı olmayıb. Yalnız ATU-nun Tədris Cərrahiyyə Klinikasında bətndəki dölü əməliyyat etməyə razılıq verilib.

T.Canbaxışovun sözlərinə görə, pasiyent klinikaya hamiləliyin 31 həftəliyində müraciət edib. Daha öncəki müayinələr zamanı xanımın bətnindəki uşağın döş qəfəsinə mayenin yığıldığı aşkarlanıbmış: "Döş qəfəsinə maye yığıldığı üçün ürək sıxılırdı. Bu, ürəyin fəaliyyətinə mane olduğu üçün dölün bütün bədənində ödəm inkişaf edirdi. Bİr neçə tibb müəssisələrində hamiləliyin sonlandırılmasını tələb etsələr da, ailə belə bir qərarla razılaşa bilmirdi".

ATU-nun Tədris Cərrahiyyə Klinikasında döldən genetik analiz götürülüb və nəticədə uşağın sağlam olduğu dəqiqləşdirilib. Bundan sonra əməliyyat planlaşdırılıb. Həkim deyir ki, adətən döş qəfəsinə mayenin yığılmasının səbəbi ağ ciyərlərin üstünü örtən selikli qişanın gec inkişafı ilə əlaqələndirilir. Əgər zamanında yardım göstərilməzsə, döl ürək çatışmazlığından tələf olur. Odur ki, dölün əməliyyat olunmasına qərar verildi.

T.Canbaxışov bildirir ki, əməliyyat hamiləliyin 32-ci həftəliyində aparılıb. Ümumi anesteziya altında ana bətninə daxil olunub və dölün döş qəfəsinə stend taxılıb. Bu stend ağ ciyərin ətrafındakı mayenin uşaqlıq boşluğuna axmasını təmin edib. Beləliklə, ürəyin fəaliyyəti bərpa olunub. Hamiləliyin 36-cı həftəsində dünyaya gələn körpə bir neçə gün yenidoğulmuşların reanimasiyasında müalicə aldıqdan sonra tam sağlam valideynlərinin qucağında xəstəxananı tərk edib.

# «Nəzəri, Klinik və Eksperimental Morfologiya» jurnalının ilk nömrəsi təqdim olundu

**Azərbaycan Tibb Universitetində "Nəzəri, Klinik və Eksperimental Morfologiya" jurnalının ilk nömrəsinin təqdimat mərasimi keçirilib. "Azərbaycan Anatom, Histoloq və Embrioloqlar Elmi Cəmiyyəti" İctimai Birliyinin orqanı olan bu jurnalın təqdimatı ATU-nun İnsan anatomiyası və tibbi terminologiya kafedrasında baş tutub. Tədbirdə həmin kafedranın, eləcə də Histologiya, embriologiya və sitologiya, həmçinin məhkəmə təbabəti kafedralarının əməkdaşları iştirak ediblər.**




Tədbirdə giriş sözü ilə çıxış edən İctimai Birliyin sədri, professor Vaqif Şadlinski Azərbaycanda tibb elmi və təhsilinin inkişafı üçün yaradılan əlverişli şəraitə görə cənab prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür edib.

O, həmçinin "Azərbaycan Anatom, Histoloq və Embrioloqlar Elmi Cəmiyyəti" İctimai Birliyinin yaradılması və jurnalın nəşrində göstərilən köməyə görə səhiyyə naziri, professor Oqtay Şirəliyev, eləcə də ATU-nun rektoru, professor Gəray Gəraybəyliyə dərin minnətdarlığını bildirib.

Toplantıda İctimai Birliyin sədr müavinlərinin təyinatı haqqında məlumat verilib. Qeyd olunub ki, ATU-nun Histologiya, sitologiya və embriologiya kafedrasının müdiri, professor Eldar Qasımov və Tibbi biologiya və genetika kafedrasının müdiri, dosent Vaqif Kərimov birliyin sədr mavinləri kimi fəlaiyyət göstərəcəklər.

Professor Eldar Qasımov, professor Mansur Bünyatov, dosent Şöhrət Qasımov, professor Mübariz Allahverdiyev və digər çıxış edənlər İctimai Birliyin təsis edilməsini, jurnalın ilk nömrəsinin çapdan çıxmasını Azərbaycanda morfologiya elminin uğuru kimi qiymətləndiriblər, bu sahədə əməyi olanlara minnətdarlıqlarını çatdırıblar. Bu tədbirin ATU-nun yaradılmasının 90 illiyi, insan anatomiyası kafedrasının yaranmasının 100 illik yubileyi ərəfəsində keçirilməsinin mühüm tarixi əhəmiyyət kəsb etdiyini də vurğulayıblar.

Qeyd edək ki, "Nəzəri, Klinik və Eksperimental Morfologiya" beynəlxalq jurnaldır. Jurnalın baş redaktoru və təsisçisi Rusiya Elmlər Akademiyasının akademiki, professor Vaqif Şadlinski, müavini isə professor Balakişi Hüseynovdur.

# Klinik qastroenterologiyaya dair dilimizdə ilk dərs vəsaiti işıq üzü görüb

*Bu günlərdə ATU-nun I daxili xəstəliklər kafedrasının əməkdaşları – professorlar V.Əzizov, S.Alimetov, t.ü.e.d. E. Hətəmzadə, dosentlər A. Nuriyev, S. Muradova, A. Ələkbərova və K. Məmmədyarovanın kollektiv müəllifliyi ilə "Klinik qastroenterologiya " Yemək borusu, mədə və bağırsaq xəstəlikləri adlı (I hissə) dərs vəsaiti professor Vəsadət Əzizovun redaktorluğu ilə yüksək nəfis tərtibatda işıq üzü görüb.*

Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun "Terapiya" kafedrasının professoru İ.Mustafayevin rəyçiliyi ilə çap olunan bu dərs vəsaitində yemək borusu, mədə və bağırsaq xəstəliklərinin klinikası, diaqnostikası və müasir müalicə üsulları barədə geniş məlumat verilib.

Məlumat üçün onu da bildirək ki, VI fəsildən və 365 səhifədən ibarət olan "Klinik qastroenterologiya" kitabına qədər Azərbaycan dilində bu adda dərs vəsaiti nəşr edilməyib.

Kitabda müəlliflər klinik qastroenterologiyaya aid fizoloji, morfoloji, diaqnostik, müalicəvi və profilaktik materialları müasir səviyyədə, kompleks şəkildə işləyərək maksimum dərəcədə aydın və rasional stildə bu sahədəki son nailiyyətlərə və individual təcrübəyə əsaslanaraq təsvir ediblər.

Kitab qastroenteroloqlar, terapevtlər, gənc həkimlər, rezidentlər, ordinatorlar və digər həkim mütəxəssislər üçün nəzərdə tutulub.




# ƏMƏKDAŞIMIZ İTALİYADA KEÇİRİLƏN BEYNƏLXALQ TƏDBİRDƏ SƏDRLİK EDİB

**Bu ilin 13-16 iyun tarixlərində İtaliyanın Taormina şəhərində Avrasiya Respirator Cəmiyyətinin Astma və Rinit üzrə Beynəlxalq Simpoziumu keçirilib.**




Avropa Respirator Cəmiyyətinin, eləcə də Avropa Allerqologiya və Klinik İmmunologiya Akademiyasının dəstəyi ilə keçirilən simpoziumda bir çox Avropa və Asiya ölkələrindən alimlər iştirak edib. Simpoziumda nüfuzlu alimlərin bronxial astma və allergik rinitə dair çoxsaylı məruzələri dinlənilib. Adı çəkilən xəstəliklərin patogenezi, feno və genotipləri, müasir diaqnostika və müalicə metodları haqda əldə edilən yeniliklər barədə ətraflı məlumat iştirakçıların diqqətinə çatdırılıb. Simpoziumda, həmçinin allergik xəstəliklərə zəmin yaradan və onları müşayiət edən bir sıra patologiyalar, onların aradan qaldırılması yolları, xronik öskürək, vizinq sindromu və bir sıra aktual mövzular da müzakirə olunubdur.

Qeyd edək ki II Uşaq xəstəlikləri kafedrasının dosenti Məleykə Kərimova iştirak edib və Türkiyəli həmkarı ilə birlikdə bu mötəbər tədbirdə bölməyə sədrlik edib.

# Bir ailənin 19 illik övlad həsrətinə son qoyulub

ATU-nun Tədris Cərrahiyyə Klinikasında daha bir riskli hamiləlik uğurla nəticələnib. Mehdiyevlər ailəsinin 19 illik övlad həsrətinə son qoyulub. Dünyaya gələn yeni körpə anası Təranə xanıma, atası Əlimuxtar bəyə, eləcə də bu günü səbirsizliklə gözləyən bütün doğmalarına sonsuz bir sevinc bəxş edib.



Uzun illərdir ki, ümidlərini itirməyən ailəyə bu sevinc hissini yaşadan ATU-nun I mamalıq-ginekologiya kafedrasının assistenti, həkim-ginekoloq Arzu İsmayılova və Tədris Cərrahiyyə Klinikasının Neonatologiya şöbəsinin müdiri Aygün Rüstəmxanlı həmsöhbətimizdir. Hər iki həkim hamiləlik müddətində hamilə qadının müayinə və müalicəsi, ana və körpənin son sağlamlıq durumu barədə fikirlərini bizimlə bölüşürlər.

Ailənin ona hamilələiyin 3-cü ayında müraciət etdiyini deyən həkim-ginekoloq Arzu İsmayılova bildirir ki, bu, pasiyentin 19-cu hamiləliyi idi: "Bundan əvvəlki 18 hamiləlik təxminən 5-6-cı aylarda mənfi sonluqla bitib. Yəni hamilə qadının ana olmaq arzusu reallaşmayıb. Klinikamıza ümidlə gəlmişdilər ki, biz bu hamiləliyi uğurla başa çatdıra biləcəyik. Allaha şükür ki, hamiləliyi erkən sonlandırmaq məcburiyyətində qalsaq da, ailənin ümidlərini doğrultduq. Hamiləliyin 7-ci ayında doğulan körpə Neonatologiya şöbəsinində ciddi nəzarətdə saxlanıldı. Artıq ana və uşaq sağ-salamat evlərinə yola salınır".

Arzu İsmayılovanın sözlərinə görə, vaxtından qabaq düşük doğuş təhlükəsini aradan qaldırmaq üçün hamilə qadında qabaqlayıcı müalicələr aparılıb. Hamiləliyin 22-ci həftəsindən sonra patologiya şöbəsinə yerləşdirilən pasiyent sona qədər izlənilib. Müalicə zamanı ilk növbədə infeksiya amili, şəkərin yuxarı olması və qalxanvari vəz patologiyası nəzərə alınıb.

Neonatologiya şöbəsinin müdiri Aygün Rüstəmxanlı da söhbətin çətin bir hamiləlikdən getdiyini deyir. Qeyd edir ki, Arzu xanım məni şöbəmizdə yerləşdirilən bu ana ilə tanış edəndə bizə güvəndiyini bildirdi. Bütün məlumatları olduğu kimi bizə çatdıraraq əlavə etdi ki, ananın infeksiyon markerləri yüksəkdir, endokrin patologiyaları var, dəfələrlə düşüklərlə nəticələnmiş hamiləlik həyatı yaşayıb. Bir doğulmuş uşağı olub, o da sağ qalmayıb: "Mənim üçün vacib idi ki, baş-beyinlə bağlı problem yaşamayaq. Çünki ağ ciyər, mədə-bağırsaq, mübadilə, eyni zamanda immun sistemləri ilə bağlı çox ciddi problemləri olacağını əvvəlcədən bilirdik. Amma baş-beyinlə bağlı problemin olması bizim işimizi demək olar ki, imkansız hala gətirib çıxarardı. Xoşbəxtlikdən beyinlə bağlı problemimiz olmadı. Belə uşaqlarda qansızmaları çox görürük. Ginekoloqların köməyi ilə bu problemdən də qorunduq".

Nəticənin yaxşı olması bütün çətinlikləri unutdurub. Mehdiyevlər ailəsi onlara bu xoşbəxt anları yaşadan tibbi personala dərin təşəkkürlərini bildirir, öz sevinclərini paylaşırlar. Bizə isə dünyanın ən gözəl simfoniyası hesab olunan körpə səsinin hər bir ailədə eşidilməsini arzulamaq qalır.

# ATU-nun tələbəsi Şahdağ zirvəsində universitetin bayrağını dalğalandırıb

Azərbaycan Tibb Universitetinin II Müalicə-profilaktika fakültəsinin tələbəsi, FAİREX -in (Hava və Ekstermal İdman növləri Federasiyası) idmançısı, Azərbaycan dağçısı Qüdrət Qədirsoy ATU-nun bayrağını Şahdağ zirvəsində dalğalandırıb. Azərbaycan Respublikasının ərazisindəki ikinci ən böyük zirvəmiz olan Şahdağ zirvəsi dəniz səviyyəsindən 4243 metr yüksəklikdə yerləşir.



Q.Qədirsoyun sözlərinə görə, iyunun 22-də rəhbərlik etdiyi 13 nəfərlik qrupla Quba rayonuna yollanıb: "Quba rayonu ərazisində yerləşən Böyük Qafqaz sıra dağlarının Şahdağ yan silsiləsində 3100 m yüksəklikdə kamp quruldu. İyunun 23-də səhər saat 05:00-dan zirvə yürüşünə başladıq. Günorta saatlarında məqsədimizə çatdıq - Şahdağ zirvəsində ATU-nun bayrağını dalğalandırdıq".

Qeyd edək ki, Qüdrət Qədirsoy 2013-cü ildən etibarən bir sıra digər zirvələrdə də olub. Dağçı uzun məsafələr qət edərək, Bazardüzü (4466 m), Cümhuriyyət (3740 m), Atatürk (3751 m), Çingiz Mustafayev (4062 m), Heydər Əliyev (3751 m) və digər zirvələri fəth edib.

**ATU-nun mətbuat xidməti**

# "Təbib" istirahət düşərgəsində yaradılan şəraitə görə təşəkkür məktubu

**Azərbaycan Tibb Universitetinin "Təbib" istirahət düşərgəsində ildən-ilə yüksək səviyyədə abadlıq-quruculuq işləri aparılır, düşərgədə istirahət edənlərə göstərilən xidmətin səviyyəsi keyfiyyətcə yaxşılaşdırılır. Düşərgədə yaradılan ideal şərait universitet əməkdaşlarının əlamətdar günlərimizi və mütəxlif bayramlarımızı belə bu məkanda yüksək səviyyədə qeyd etməyə imkan verir.**



Bu yaxınlarda I Cərrahi xəstəliklər kafedrasının əməkdaşları kafedranın müdiri, professor Nuru Bayramovun rəhbəriyi ilə "Təbib" istirahət düşərgəsində olublar. Orada yaradılmış ideal şərait, göstərilən xidmətdən kollektiv məmnun qalıb. Bu səbəbdən professor N.Bayramov ATU-nun rektoru, professor Gəray Gəraybəyliyə təşəkkür məktubu ünvanlayıb. Məktubun mətnində qeyd olunur: "İnsan amilinə xüsusi önəm vermək, ölkəmizin bütün sərvətlərini insanların inkişafına, sağlamlığına, təhsilinə və maddi rifahının yüksəldilməsinə yönəltmək Ulu öndər Heydər Əliyevin və onun layiqli davamcısı Prezident İlham Əliyevin daxili siyasətinin ana xətti, prioritet istiqamətidir. Azərbaycan dövlətinin və xalqımızın əlamətdar günlərini, bayramlarını ölkəmizin füsunkar güşələrində keçirmək kafedramızda bir ənənə halını almışdır. Bu il də ənənəyə sadiq qalaraq 28 May Respublika gününü Universitetimizin Nabran qəsəbəsində yerləşən "Təbib" istirahət düşərgəsində keçirmək məqsədi ilə mayın 27-də, gərgin iş həftəsindən sonra kollektivimizlə birgə həmin düşərgəyə yola düşdük. Sizin bilavasitə rəhbərliyiniz altında və ağır zəhmətiniz hesabına yüksək zövqlə təmir olunmuş və ərazisi başdan-başa abadlaşdırılmış "Təbib" düşərgəsində bir günlük istirahət hər birimizə rahatlıq gətirdi, düşərgənin rəhbəri və xidmətçi heyətinin gözəl münasibəti, öz işlərinə vicdanla, qayğıkeşliklə yanaşması bizdə böyük rəğbət hissi doğurdu. "Təbib" düşərgəsinin yüksək tələblərə cavab verməsi, yeməkxananın, istirahət korpuslarınınəla təmiri və təchizatı, yüksək səviyyəli xidmət hamımızı olduqca qürurlandırdı.

Cənab Rektor! Düşərgənin yüksək standartlara uyğun təmiri və yenidən qurulmasında, abadlaşdırılmasında, onun sağlam kollektivinin formalaladırılmasında, əməkdaşların mənalı istirahətinin təşkilində birbaşa və davamlı fəaliyyətinizə görə Sizə və universitetin Həmkarlar İttifaqı Komitəsinin rəhbərliyinə bir daha təşəkkürümüzü bildiririk".

# Tədris Cərrahiyyə Klinikasında növbəti unikal əməliyyat aparılıb

**◆ III Cərrahi xəstəliklər kafedrasının müdiri, professor Fariz Camalovun rəhbərliyi ilə ATU-nun Tədris Cərrahiyyə Klinikasında növbəti bir unikal əməliyyat icra olunub.**



III Cərrahi xəstəliklər kafedrasının müdiri, professor Fariz Camalovun rəhbərliyi ilə ATU-nun Tədris Cərrahiyyə Klinikasında növbəti bir unikal əməliyyat icra olunub.

Əməliyyatın mahiyyəti barədə ətraflı şəkildə məlumat verən F.Camalov qeyd edib ki, 57 yaşlı Xəzri Bədəlov sol qabırğaaltı, sol bel və qasıq nahiyəsində kəskin ağrıların olması şikayəti ilə klinkaya müraciət edib: " Xəstə klinik laborator müayinədən keçən zaman onun sol tərəfində repropertonal sahəni, dalağı, sol böyrəyi, böyrəküstü vəzini, yoğun bağırsağın dalaq əyriliyini, köndələn və enən çəmbər bağırsağını, mədəaltı vəzin quyruğunu əhatə edən böyük bir limfosarkoma bədxassəli şişin olduğu məlum oldu. Bundan başqa onun öd kisəsində müxtəlif ölçülü daşlar da aşkarlandı. Xəstəliyin ağırlıq vəziyyəti nəzərə alındı və qısa zamanda əməliyyata hazırlandıqdan sonra o, ümimi endotraxial narkoz altında əməliyyat olundu. Xəstədən blokla dalaq, sol böyrək, sol böyrəküstü vəzni, mədəaltı vəzin quyruq hissəsi, köndələn və enən çəmbər bağırsaq, dalaq, yoğun bağırsağın dalaq əyriliyi və öd kisəsi əməliyyatla götürüldü".

Professor F.Camalovun bildirdiyinə görə, adətən, bu cür xəstələrdə yoğun bağırsaq dəridən bayıra çıxarılır ki, buna da tibbdə "anuspreturnaturalis" deyilir. Bu yolla xəstə özünün izafi ehtiyaclarını ödəməli olur. Əməliyyatın unikallığı da elə ondan ibarətdir ki, bu addım atılmadan törəmə xəstədən xaric edildi və serkulyar stepler ilə birmomentli kolo-koloanastomoz yoğun bağırsağa calandı: "Əməliyyatdan sonra xəstənin təzyiqi kəskin şəkildə aşağı düşdü. Aparılan anestoloji, reanimatoloji və digər lazımi tədbirlərə əsasən xəstədə qan təzyiqinin və qanın digər göstəricilərini normaya sala bildik".

Xəstənin 4 gün klinik şəraitdə müalicədən sonra yaxşılaşma ilə evə tərxis olunduğunu bildirən professor, onun vəziyyətinin hazırda qənaətbəxş olduğunu qeyd edib: "Xəstə mütəmadi dinamik nəzarətimiz altındadır. Histoloji müayinənin nəticələri onu göstərdi ki, onda qeyd olunan orqanlarda pritunarxası sahənin limfosarkoması mövcud olub. Sonrakı dövrlər xəstə kimyəvi dərman preparatları ilə müalicə olunacaqdır".

Qeyd edək ki, yüksək səviyyədə aparılan bu əməliyyatın assistentləri Aydın Əliyev və Azər Qasımov olublar.

# 4 yaşlı xəstənin ürəyində aorta koartasiyanın darlığı aradan qaldırılıb

**◆ ATU- nun Tədris Terapevtik Klinikasında 4 yaşlı qızın ürəyinə invaziv müdaxilə olunub. Klinikanın həkimləri qızın ürəyində ağır dərəcəli aorta koartasiyasını aradan qaldırıblar.**



Klinikanın kardioloqu Elnur İmanovun sözlərinə görə, exokardioqrafik müayinə zamanı balaca xəstənin ürəyində ağır dərəcəli aorta koartasiyası, sol ürək boşlugunun qalınlaşması aşkarlanıb. Bu, anadangəlmə ürək qüsurudur. Bu zaman aorta bəlli bir səviyyədə daralmış olur. Darlıq xüsusilə aortadan baş və qollara gedən damarlar çıxdıqdan sonra yaranır. Belə olarkən, ürəkdən vücuda göndərilən qan axını daha dar yerdən keçmək məcburiyyətində qalır. Bu qüsur yalnız cərrahi əməliyyat yolu ilə aradan qaldırılır. Əməliyyat zamanı xəstənin aorta koartasiyası nahiyəsinə ballon dilatasiyası müdaxiləsi olunub və darlıq aradan qaldırılıb.

E.İmanov bildirir ki, əməliyyat uğurla keçib və hazırda xəstənin vəziyyəti stabildir. Həkim qeyd edir ki, anadangəlmə ürək qüsuru ilə pasientlərin yetkinlik yaşına çatanların sayı get gedə artır. Bu, həm vaxtında ürək əməliyyatın aparılması, həm də kardioloji müayinənin inkişafı ilə əlaqədardır.

Qeyd edək ki, aorta koartasiyası bütün anadangəlmə ürək qüsurlarının 6-12%-ni təşkil edir və hər 1200-1300 diri doğuşda təqribən 1 koartasiya halına rast gəlinir.

## Etibarsız sayılır

I müalicə-profilaktika fakültəsinin V kurs, 20[a] qrup tələbəsi Fətəliyeva Rəşidə Rəşadət qızının adına verilmiş müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin III kurs, 165[a] qrup tələbəsi Quliyev Fərhad Elşad oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin V kurs, 20[a] qrup tələbəsi Cəfərzadə Arzu Vaqif qızının adına verilmiş müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin III kurs, 781[b] qrup tələbəsi Əhmədov Tamerlan Ceyhun oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin V kurs, 20[a] qrup tələbəsi Aşurova Elvina Vladimir qızının adına verilmiş müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin VI kurs, 278[b] qrup tələbəsi Abdullayeva Nərmin Fərahim qızının adına verilmiş müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin IV kurs, 371[a] qrup tələbəsi Məmmədli Sevinc Sulduz qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin V kurs, 20[a] qrup tələbəsi Tağıyeva Türkan Nurməmməd qızının adına verilmiş müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin V kurs, 20[a] qrup tələbəsi Cəfərzadə Arzu Vaqif qızının adına verilmiş müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

## Allah rəhmət eləsin!

II Müalicə-profilaktika fakültəsinin dekanlığı və Tibbi və bioloji fizika kafedrasının əməkdaşları

**dosent Elxan Musayevin**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Əczaçılığın texnologiyası və idarəçiliyi kafedrasının əməkdaşları kafedranın assistenti Sevinc Musayevaya atası

**Elxan Musayevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Patoloji fiziologiya kafedrasının əməkdaşları iş yoldaşları

**Eyvazova Tamilla Rüstəm qızının**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Əczaçılığın texnologiyası və idarəçiliyi kafedrasının əməkdaşları kafedranın baş müəllimi Aidə Bəndəliyevaya atası

**Allahverdi Bəndəliyevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

ATU-nun mühafizə şöbəsinin əməkdaşları iş yoldaşları

**Elgün Məmmədovun**

faciəli vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Bioloji kimya kafedrasının kollektivi kafedranın dosenti Şaimən Həsənovaya anası

**Bahar xanımın**

vəfatından kədərləndiyrini bildirir və dərin hüznlə başsağlığı verir.

Bioloji kimya, Tibbi və bioloji fizika kafedralarının əməkdaşları Bioloji kimya kafedrasının dosenti Aqil Orucova və Terapevtik stomatologiya kafedrasının assisenti Əhməd Orucova əzizləri, ATU-nun dosenti

**Elxan Musayevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
ELDAR İSMAYIL

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

**ÜNVANIMIZ:**
**Mərdanov qardaşları - 98[c]**
**2-ci mərtəbə,**
**Tel.: 595-24-97**
**tabibqazeti@gmail.com**

Lisenziya H - 022633
İndeks -0269
Sayı 2200